# Bəraət

## Hüseyn Cavidə onu Heydər Əliyev verib

*Ulu Hüseyn Cavid çox bəlalar görüb, təqib olunub, incidilib, bədxahları tərəfindən haqsız tənqidlərə düçar olub, tarixi gözəllik və sevgi olan ustad şairin son mənzili sürgün olub. Şaxtalı Sibir tayqalarında 59 yaşında Vətəndən xeyli uzaqlarda dünyasını dəyişib. Vətəninin hər bir daşını, yamacını, dağ-dərəsini, yaşıl ormanlarını böyük məhəbbətlə sevən ulu şairin poetik ruhu gör harada sona yetdi. Vətən Cavidsiz qaldı. Nə ağır dərd, nə nisgilli ələm.*

Ötən əsrin 37-ci ili yaman gəldi bizlər üçün. Acı rüzgar əsdi, tufanlar qopdu, çaylar daşdı, sel-su aləmi başına götürdü, qara buludlar, qara tufanlar əsdi başımızın üstündən. Vətənsevər ulu sənətçilərimizin bəlalı günləri başladı. Tarixin qanlı ləkələri səpələndi üstümüzə.



Bu qaralı günlərin birində xəbislər Cavidin mənzilini döydülər. Sübhün açılmasına az qalırdı Müşkünaz xanım, 18 yaşlı Ərtoğrul, 12 yaşlı cocuq Turan da şirin yuxuda idilər. Oyaq qalan Cavid idi. Masasının arxasında dərin xəyala dalmışdı, özünün romantik poetik dünyasında idi. Şirin xəyallı bir aləmdə idi. Bu məqamda qara əllər Cavidin mənzilini döydü. Qapını sındırdılar. Kim idi qapını döyən. Bu nə təşviş, bu nə həyəcandır!?

Sübhün açılmasına az qalırdı. Şair şirin xəyaldan ayrıldı, asta addımlarla qapıya tərəf getdi. Hər şey bununla bitdi. Xəbis, riyakar, qara fikirlərlə mənzilə daxil olan qara pencəklilər heç bir sorğu etmədən evi axtarmağa, ələk-vələk etməyə başladılar. Görəsən bu nə axtarış idi? Müşkünaz xanım da, Ərtoğrul da, Turan da bu qəfil səs-küydən ayıldılar. Sən demə bu axtarış Cavidin qara günlərinin başlanğıcı idi. Qarşıdan gələn tufanlı illərin uvertürasıydı.

Qara xəbislilər həmin gecə Cavidi apardılar. Hara? Bu sirri xuda idi. Qəlbi yamaqlı iblislər arzularına çatdılar. Xalqın böyük şairi «xalq düşməni» damğası altında Sibirə sürgün edildi. Millətə bax, dərdə bax, illətə bax! Ulu Cavidin aşağıdakı deyimləri nə qədər də iblislərə tutarlı cavabdır.

*Mənə gülməkdəsiniz kərçi bu gün,*
*Var yarın sizlər üçün qorxulu gün.*
*O zaman iştə ölənlər dirilir,*
*Kim nə yapmışsa cəza çəkdirilir.*

Böyük Cavidi məhv etmək, sürgünə göndərmək, əzablar vermək milli mənəviyatı tarimar etmək idi. Bədxahlar, milli təəssübkeşlikdən çox uzaq olanlar, «arxalı nadanlar» (R.Rza), millət satqınları bir həqiqəti unutdular ki, Cavidi sürgünə göndərmək, ona «xalq düşməni» yarlıkı yapışdırmaq, xalqı, ədəbiyyatı, mədəniyyəti yetim qoymaq idi. Necə ki, qoydular. Cavidsiz teatr, mədəniyyət necə də kasıb göründü.

20 illik Cavid ayrılığı, 20 illik Cavid nisgili, 20 illik Cavidsiz yaşamaq necə də dözülməz idi. Düz 20 il Cavid görünmədi səhnədə, əsərləri yasaq edildi, kitabları işıq üzü görmədi, ailəsi min bir əzablar içərisində yaşadı. Bu yaşam olmadı, əzab, işgəncə, ölüm-olum dileması oldu.

Amma vəfalı ömür-gün yoldaşı Müşgünaz xanım Ərtoğrulu, Turanı qanadları altında saxladı. Qoymadı qara yellər əssin onların üstündə. Əsl kişi qeyrətilə onları saxladı, təhsil verdi, əsl Cavid tərbiyəsi aşıladı onlara.

Amma yenə də acı rüzgar əsdi, çaylar daşdı, tufan qopdu. Ərtoğrul 24 yaşında atasından bixəbər Naxçıvanda dünyasını dəyişdi. Ana xəbər tutmadı, bacı xəbər tutmadı bu vaxtsız ölümdən. Hələ onu da bilmədilər ki, Cavid də 59 yaşında ikən Sibirdə dünyasını dəyişib.

37-nin qara tufanları bu ailəyə nə qədər zülmlər, işgəncələr, ələmlər, əzab-əziyyətlər gə-

tirdi.

Hər bir əzaba, hər bir zillətə Müşgünaz xanım dözdü, sinə gərdi. Qəlbində inandı ki, hər qaranlıq gecənin işıqlı bir gündüzü var. Belə ümidlərlə, belə arzularla yaşadı zavallı Müşgünaz xanım.

Qara aylar, qara günlər öz axarıyla davam edirdi. Tuthatut, təqiblər, işgəncələr, əzablar xalqın ləyaqətli oğullarını aradan götürürdü. Azərbaycan od içərisində yanırdı, külə dönürdü. Bir yandan da qara kabuslu müharibə insanları qırırdı. Ölkə səfalət içərisindəydi. Etibar, inam qalmamışdı. Belə zavallılardan biri də Cavid ailəsi idi.

... Sular duruldu, qış gedib, bahar gəldi. Yıxıldı ağalar, qullar dünyası. Qara günlərə nöqtə qoyuldu. Qəlblərə işıq gəldi, könüllər baharlaşdı. Xalqa, ləyaqət sahiblərinə cəza verənlər müttəhimlər kürsüsündə oturmalı oldular. Yenə də Cavid misraları yada düşdü.

*... O zaman iştə ölənlər dirilir,*
*Kim nə yapmışsa cəza çəkdirilir.*

Bir gün Cavid Əfəndinin qapısında da sərin meh əsdi. Qara buludlar çəkilib getdi. Cavid səması aydınlaşdı. Göydə ulduzlar sayrışdı. Cavidin əzəmətli romantik dünyası yenidən xalqa qaytarıldı. Milli mədəniyyətimiz Cavidləşdi, teatrlarımızın əlvan məxmər pərdələri Cavid pyeslərilə açıldı. Cavid poetik dünyası rəssamlarımızın, bəstəkarlarımızın əsl ilham mənbəyinə çevrildi. Təkrar-təkrar zəngin mənəviyyatlı əsərləri nəşr olundu. Cavidə qayıdış milli ədəbi qələbəmiz oldu.

Soy-kökümüz, milli qan yaddaşımız, milli şüurun oyanışı özümüzə qayıtdı. Artıq tapdıq özümüzü, kimliyimizi. Tanınmayan Azərbaycan dünyada tanındı, şöhrətləndi, uca zirvələr fəth etdi. Tanrısı gözəllik və sevgi olan Cavid əfəndinin baharlı və sevdalı günləri başlandı. Qara günlər işıqlıqla əvəzləndi. Yenə də ulu Cavidin qiymətli misraları yada düşdü:

*Ah, nə xoşdur əbədi sülh olsa,*
*Bəşəriyyət acıdan qurtulsa!*

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişi ölkəni acıdan, qara tufanlardan, qara yellərdən xilas etdi. Azərbaycanın işıqlı günləri başlandı. Cavid şəxsiyyəti, Cavid əsərləri Heydər Əliyev hakimiyyəti illəri sözün həqiqi mənasında əsl bəraətini aldı. Ulu Cavidin qeyrətli qızı Turan xanım qürurla bəyan etdi ki, Cavidə bəraəti yalnız Heydər Əliyev verib. Bu həqiqətən belədir.

Hüseyn Cavidin anadan olmasının 100 illiyi (1981) barədə xüsusi qərar verildi. Küllüyatı yenidən nəşr olundu, pyesləri yenidən tamaşaya qoyuldu, adına küçələr, prospektlər, xiyabanlar verildi. Cavid poeziya teatrı yaradıldı. Və ən böyük əbədilik hadisə Cavidin cənazəsinin qalıqları uzaq Sibirdən doğma torpağı Naxçıvana gətirildi. Bu tarixi hadisəyə çevrildi. Naxçıvanda ulu şair dramaturqun ev-muzeyi açıldı. Bu işıqlı xidmətlər yalnız Heydər Əliyev fenomeninin Cavid irsinə göstərdiyi ən qiymətli yadigarlardır.

*Nə yaxşı, qalmadı gözü yollarda,*
*Gördü atasını qızı Cavidin.*
*Tabutu ortadaydı, şəkli divarda,*
*Bayrama dönmüşdü yası Cavidin.*
(N.Həsənzadə)

Müstəqillik illərində ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Cavid ədəbi irsinə diqqət və qayğı özünün yeni səhifələrini yazdı. Paytaxt şəhərimizdə – Bakıda Cavidin vaxtilə yaşadığı mənzili ulu şairin ev-muzeyinə çevrildi. Yaraşıqlı və görümlü Cavid prospektində Cavidin möhtəşəm heykəli qoyuldu. Xalqımızın ümummilli lideri Heydər Əliyev Cavidi və onun zəngin yaradıcılığını yenidən xalqa tanıtdırdı. Cavidin anadan olmasının 100 illiyi və 120 illiyi barədə verdiyi tarixi qərarlar büsbütün ulu və azman sənətkarın parlaq irsini bir daha dolğunluğuyla üzə çıxartdı. Ulu öndərin işıqlı qayəsi buydu: Cavid Vətən oğludur. Cavidə qayıdış xalqa, milli mənəviyyata qayıdışdır. Bu qayıdışı, bu sevinci bizlərə, xalqa, cavidsevərlərə yalnız və yalnız dahi şəxsiyyət Heydər Əliyev bəxş etdi. Elə buradaca yenə diqqətli misraları yada düşür.

*Çalışıb, həp qalib ol, mərd ol, bu aydın*
*bir həqiqətdir.*



*Cahan bir nazənin dilbər ki, yalnız*
*mərdə möhdacdır.*

Ötən əsrin 90-cı illərinin əvvəllərində 1992-ci ilin oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin dünyaya gəlişinin 110 illiyi keçirildi. Bu hadisə sözün əsl anlamında milli ədəbi bayrama çevrildi. Ürək ağrısıyla qeyd edək ki, ölkənin heç bir yerində, hətta paytaxt şəhərimiz Bakıda belə Cavidin 110 illik yubileyi yada düşmədi. Bu təntənə yalnız Naxçıvanda keçirildi. O vaxt ulu öndər Naxçıvanda Ali Məclisin sədri işləyirdi. Çox təntənəli, bədii vüsətli poetik anımlı bir ədəbi gecə keçirildi. Yubiley təntənəsində dahi şəxsiyyət Heydər Əliyev çox məzmunlu çıxışında qeyd etdi ki, Hüseyn Cavid Azərbaycan ədəbiyyatının milli sərvətidir, minillik poeziyamızın, çoxyaşarlı dramaturgiyamızın nəhəng ədəbi simalarından biridir. Dahi Hüseyn Cavid fəlsəfi əsərlərilə dramaturgiyamıza yeni məzmun, orijinal poetik ruh, məzmun dərinliyi, geniş epik vüsət gətirdi. Cavid Azərbaycan xalqının oğludur. O adı kimi əbədiyaşardır.

Hüseyn Cavid irsinin geniş və əhatəli mənada təbliği daima ulu öndərin diqqətində olmuşdur. Məhz bu dahi şəxsiyyətin təşəbbüsüylə Cavidin ölməz «İblis» əsəri özünün ekran həyatını tapmışdır. Görkəmli yazarımız Anarın ssenarisi əsasında rejissor Ramiz Həsən oğlunun «İblis» əsərinin ekranlaşdırılması ulu Cavid irsinə dərin ehtiramın yeni bir təzahürü idi. Heydər Əliyevin Cavid irsinə göstərdiyi xidmətlərdən biri də tarixə çevrildi.

Yenə bir tarixi hadisəni xatırlamaq olduqca vacibdir. 1995-ci ilin iyun ayının 10-da Prezident Aparatında Cavidin məqbərəsinin inşası ilə əlaqədar keçirilən müşavirə bir daha Cavid dünyasına qayıdış kimi səsləndi. Bir həyəcan təbili idi bu müşavirə. Müşavirədə xalqımızın ümummilli lideri Heydər Əlieyev geniş və məzmunlu nitq söylədi.

Nə qədər ki, xeyirxah, qəlbi nurlu, Vətəni sevən, işıqlı fikirli insanlar var, orada Cavid də var. Nə qədər ki, bəşər var, nə qədər ki, sənət yaşayır, Cavid sözü, Cavid kəlamı bütün əsrlər üçündür. Cavidə qayıdış xalqa qayıdışdır. Cavid məqbərəsinin inşası ilə əlaqədar keçirilən müşavirənin xeyirxah missiyası məhz bu ideyalardan ibarət idi.

Heydər Əliyev xeyirxahlığı, Heydər Əliyev fenomeni Cavidin yaşamlı ömrünü daha da poetikləşdirdi. «Xəyyam» tamaşaya qoyuldu və bir neçə ildən sonra «İblis» teatrsevərlərin ixtiyarına verildi. «İblis»in yaradıcıları-quruluşçu rejissor Mehdi Məmmədov, quruluşçu rəssamlar Elçin Məmmədov, Nazim Bəykişiyev, baş rolların ifacıları Hamlet Xanızadə, Ramiz Məlikov, Səfurə İbrahimova, Vəfa Fətullayeva Respublika Dövlət mükafatına layiq görüldülər.

Ulu Cavidin yaşamlı günləri get-gedə şaxələndi. Cavid ömürlüyünə həsr olunan güclü, poetik vüsətli poemalar, şeirlər yazıldı, sözlərinə cazibəli musiqilər bəstələndi. Rəssamların əlvan biçimli fırçasında Cavid dünyası özünün bədii əksini tapdı. Bir sözlə Cavid qəlblərə hakim kəsildi.

*Naxçıvan düşünür saçlarında dən,*
*Axıb pıçıldayır şəfa bulaqlar.*
*Yurduna qayıdır Cavid təzədən,*
*Heykələ dönməyə gedir sənətkar,*
*Torpaqmı Cavidə qovuşur indi*
*Cavidmi torpağa?*
*Söz tarixindir.*
(N.Həsənzadə)

Tarix Cavidi yaşatdı, Heydər Əliyev ölməz söz ustadını tarixləşdirdi. Cavid yaradıcılığı milli sərvətə çevrildi. Azərbaycanın döyünən ürəyi olan qədim Naxçıvanda əzəmətli füsunkar Cavidlər kompleksi tikildi.

29 oktyabr 1996-cı il. Naxçıvanın qədim «Əlixan» məhəlləsi, Cavidin doğulduğu torpaq. Ən bayramlı bir gün. Böyük insan axını. Yeni bir Heydər Əliyev yadigarı.

Mərasimdə Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov giriş sözü ilə çıxış etdi: ***«Hüseyn Cavidin yaradıcılığı islam aləmi və türk dünyası ədəbiyyatında özünün dərin fəlsəfi məzmununa, bəşəri ideyalarına, milli xüsusiyyətlərinə görə mühüm əhəmiyyətə malik olan ölməz sənət nümunəsidir. Gəncliyində bir neçə il İranda-Təbrizdə, Urmiyada yaşayıb oxuyan, sonra Türkiyədə-İstanbul Universitetinin ədəbiyyat fakültəsində ali təhsil alan Hüseyn Rasizadə özünün dahiyanə dram əsərləri və şeirləri ilə ədəbiyyat mənasını bildirən «Cavid» təxəllüsünün qanuni sahibi olduğunu sübuta yetirdi.***




Mədəni-maarif - 10/11 - 2007

*Bu gün açılışına toplaşdığımız Hüseyn Cavid məqbərəsi Azərbaycan Prezidentinin milli mədəniyyətimizə göstərdiyi yüksək atalıq qayğısının yeni və bənzərsiz təzahürüdür. Möhtərəm Heydər Əliyevin adı ilə bağlı olan Hüseyn Cavid məqbərəsi zəngin və çox əsrlik Naxçıvan memarlıq məktəbi tarixində yeni hadisədir».*

Cavidlər kompleksinin açılışında xalq yazıçısı Anar, Hüseyn İbrahimov, doktor Cavad Heyyət, «Star» şirkətinin nümayəndəsi Əli Evseni, Türkiyə Respublikasının millət vəkili Şamil Aşırım, ədəbiyyatşünas-publisist Rafael Hüseynov, xalq artisti Zəroş Həmzəyeva, xalq şairi Zəlimxan Yaqub, professor Yaşar Qarayev, Turan xanım Cavid çıxış etdilər.

Mərasimdə xalqımızın ümumilli lideri, bütün əsrlər üçün canlı klassik olan Heydər Əliyev böyük nitq söylədi. Ulu öndər qeyd etdi: *«Bu gün biz burada böyük yazıçı, şair, dramaturq Hüseyn Cavidin xatirəsi ilə əlaqədar toplaşmışıq. Burada çıxış edən şəxslər Hüseyn Cavidin yaradıcılığı haqqında, Azərbaycan xalqı qarşısında onun xidmətləri haqqında ətraflı danışdılar.*

*Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarətdir. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur.*

*Hüseyn Cavid Azərbaycan xalqının tarixində görkəmli yer tutub. Məhz bunlara görə də biz 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illik yubileyi haqqında böyük bir qərar qəbul etdik. Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, mən bu qərarın həm təşəbbüskarıyam, həm də onun müəllifiyəm. Bu gün mən xoşbəxtəm ki, həmin o vaxt nəzərdə tutduğum arzularım, istəklərim 15 ildən sonra yerinə yetirilir.*

*Mən çox məmnunam, sevinirəm ki, 15 il bundan əvvəl qəbul etdiyim qərar həyata keçir. Mənim arzularım həyata keçir. Mən sizi də, özümü də bu münasibətlə təbrik edirəm».*

Məhz ulu öndər Heydər Əliyevin böyük qayğısı, Cavid şəxsiyyətinə, Cavid irsinə göstərdiyi xüsusi diqqətin bariz nümunəsiydi ki, Naxçıvanda əzəmətli Cavidlər kompleksi tikildi və burada dörd Cavid- Hüseyn Cavid, Müşkünaz Cavid, Ərtoğrul Cavid, Turan Cavid məzarları bir-birinə qovuşdu.

Ayrılığın sonu varmış. Ata balaya qovuşdu, bala ata-anaya. Bu qayıdışı, bu sevdalı sevinci bizlərə, Cavidsevərlərə yalnız Heydər Əliyev dühası bəxş etdi.

Vaxtilə unudulmuş, mənən sarsılan, uzaq Sibirə nahaq sürgün edilmiş, 20 il zəngin poetik vüsətli dünyası yasaq olunmuş, ailəsi min bir əzaba qatlaşan ulu Cavid əfndinin bu gün gur səsi dünyanın ən öncül ölkələrindən eşidilir. Cavid əsərləri insanları nurlu sabahlara, xoş arzulara, baharlı günlərə səsləyir.

Möhtərəm Prezidentimiz, cənab İlham Əliyevin Hüseyn Cavidin anadan olmasının 125 illiyi ilə əlaqədar imzaladığı sərəncam qüdrətli söz ustadının şəxsiyyətinə, ədəbi irsinə göstərilən böyük diqqət və qayğının, dərin ehtiramın ən bariz nümunəsidir. Hüseyn Cavid yaşayır, bizimlə birlikdə sabahın nurlu üfüqlərinə doğru irəliləyir. Bu yol haqq yoludur.

***Hüseyn Cavidi Tanrı yaratdı, dövran məhv etdi. Heydər Əliyev şairi öz Vətəninə, xalqına qaytardı. Məzarı üstündə məqbərə ucaldaraq yatdığı torpağı ziyarətgaha çevirdi. Cavid ləyaqəti bu xalqa tac oldu.***

**Cəlil VƏZİROV,**
**AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, yazıçı-publisist**